# SUVARMA ŞƏRAİTİNDƏ BECƏRİLƏN MƏRCİMƏK NÜMUNƏLƏRİNDƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ

**Şəmsiyyə Məmmədova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu, shamsiye@bk.ru*

Kənd təsərrüfatı əkinlərinin əsas hissəsini təşkil edən paxlalı bitkilər əhalinin ərzaq və digər məhsullara tələbatının ödənilməsində mühüm rol oynayır. Aclıq və zəif qidalanma müasir dövrün qlobal problemlərindən biridir. Taxıllarda bəzi aminturşuların məhdud miqdarda olması və heyvan mənşəli qidaların qiymətinin yüksək olması zülal ehtiyacının ödənilməsində paxlalı bitkiləri vacib bir alternativə çevirmişdir.

Mərcimək bütün dünya üçün çox önəmli bir protein qaynağıdır. Yüksək miqdarda zülal (25-30%) və karbohidrata (55-60%) malik olan bu bitkinin tərkibindəki triptofan, lizin aminturşuların miqdarı taxıllara nisbətən yüksək olub mərciməyin pəhriz yeməklərində taxıllarla birlikdə geniş istifadə olunmasına səbəb olur.

Mərciməkdə həmçinin yüksək miqdarda həzmolunmayan polisaxaridlər, nişasta və oliqosaxaridlər vardır. Oliqosaxarid tərkibi bəzi tədqiqatçılar tərəfindən probiotik karbohidratlar kimi adlandırılmışdır. Mərciməkdə 5% asan, 30% gec həzmolunan nişasta vardır ki, bu da diabet xəstələri üçün çox vacibdir.

Suvarma şəraitində 46 nümunə üzərində üç il ərzində apardığımız tədqiqat işinin nəticəsinə əsasən, orta hesabla dəndə zülalın miqdarı 23,7-30,4 % arasında dəyişmişdir.

Zülalın miqdarına görə ən yüksək göstərici (30,4%) Flip2011-19, ən aşağı qiymət (23,7%) isə Flip2011-42 nümunəsində qeydə alınmışdır.

Suvarma şəraitində Abşeron BTS-də becərilən 46 nümunə içərisindən yüksək zülal göstəricisinə malik 15 mərci nümunəsi seçilmişdir, bu genotiplər Jasmin (25,7) sortundan yüksək nəticə göstərmişdir. Ən yüksək göstərici Flip 2010-19 – 30,4, 10926 – 30,3, Flip2011-19 – 29,6, Flip2011-20 – 29,2, Flip 2011-61 – 28,3, 10942 – 28,5. Bu nümunələr içərisində aşağı göstərici Flip 2010-97 – 27,7, Flip 2011-18 – 27,4, Flip 2011-51 – 27,5 olmuşdur.

Apardığımız analiz nəticəsində əksər nümunələrdə zülalın miqdarı lizinin miqdarı ilə tərs, triptofanın miqdarı ilə isə düz mütənasib olmuşdur.

Seçilmiş 15 mərcimək genotipindən seleksiya proqramlarında ilkin donor material kimi istifadə edilməsi tövsiyə edilir.